Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi

Təhsil İslahatları və İnnovasiyalar Mərkəzi İctimai Birliyi

# PEŞƏ TƏHSİLİ ÜZRƏ BƏLƏDÇİ



Bakı 2023

“Təhsil İslahatları və İnnovasiyalar Mərkəzi”
İctimai Birliyi

# Peşə təhsili üzrə
# BƏLƏDÇI

*Bələdçinin məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirməyə bilər.*

*Bələdçi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “Təhsil islahatları və innovasiyalar mərkəzi” ictimai birliyi tərəfindən həyata keçirilən “Şagirdlərin peşə təhsilinə həvəsləndirilməsi” layihəsi çərçivəsində hazırlanmışdır.*

*Layihə fəaliyyətlərinin Şirvan şəhərində keçirilməsini nəzərə alaraq Bələdçidə Şirvan şəhərində və bu şəhər sakinlərinin daha çox müraciət edə biləcəyi yerlərdə olan peşə təhsili müəssisələri haqqında məlumatlara xüsusi yer verilmişdir.*

## MÜNDƏRİCAT

GİRİŞ ........................................................................................ 5
1. Peşə təhsilinin müasir dünyada aktuallığı........................................ 6
2. Peşə təhsilinin səviyyələri.............................................................. 8
3. Peşə təhsil müəssisələri ................................................................. 9
4. Peşə təhsili müəssisələrində təhsil müddəti .................................. 9
5. Peşə təhsil müəssisələrinə müraciət müddətləri və prosedurları 10
6. Şirvan şəhəri və ona yaxın ərazilərdə peşə təhsil müəssisələri ... 11
7. Şirvan şəhərində peşə ixtisasları ................................................... 24

# GİRİŞ

Müasir dünyada və ölkəmizdə əmək bazarının tələblərinə uyğun kadr hazırlayan peşə təhsili sisteminin yaradılması böyük əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatında risklərin idarə olunması, qeyri-neft sektorunun davamlı inkişafının təmin olunması istiqamətində aparılan məqsədyönlü islahatlar ölkədə əlavə dəyər yaradan sektorların inkişafını təmin etməklə yanaşı, əmək bazarında rəqabətqabiliyyətli ixtisaslı kadr potensialına tələbatı artırmaqla, bu tələbatın ödənilməsinə imkan verən çevik və bazaryönümlü peşə təhsili sisteminin qurulmasını zəruri etmişdir.

XXI əsrin çağırışları və trendlərinə müvafiq olaraq təhsil sahəsində islahatlar çərçivəsində peşə təhsilinin müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Son illərdə Azərbaycanda peşə təhsilinin inkişafının təmin edilməsi istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin 2016-cı il 20 aprel tarixli Fərmanına əsasən, Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və Əsasnaməsinin təsdiq edilməsi bu addımlardan biridir. Hazırda ölkəmizdə yeni peşə məktəblərinin tikintisi və yeni ixtisasların açılması yüksək sürətlə davam etməkdədir.

## Hörmətli gənc dost!

Qarşında olan Bələdçinin hazırlanmasına olan zərurət yuxarıda qeyd edilən trendlərdən və peşə təhsilinin perspektiv imkanlarından qaynaqlanmışdır. Ümid edirik ki, Bələdçi yolayrıcında olan və yuxarı sinif şagirdləri olaraq sizlərin peşə təhsilinin imkanları ilə tanış edilməsində və doğru seçiminizdə müəyyən rola malik olacaq.



# 1. Peşə təhsilinin müasir dünyada aktuallığı



Peşə təhsili rəqabətqabiliyyətli iqtisadiyyatın və inkişaf etmiş cəmiyyətin təşəkkül tapmasında böyük əhəmiyyətə malikdir. Yerli və beynəlxalq qurumlar və ölkələrin iqtisadi inkişaf istiqamətlərini müəyyənləşdirən məsul şəxslər iqtisadiyyatın inkişafı və sosial bərabərliyin təmin edilməsinə nail olmaq üçün müasir peşə təhsili sisteminin bərqərar olmasına xüsusi önəm verirlər.

Dörd mühüm qlobal trend iqtisadi məhsuldarlığın amili kimi peşə təhsili və təliminin əhəmiyyətini artırır: qloballaşma, qlobal iqtisadi mühit, məhsuldarlıq tələbləri və məşğulluq üçün təhsilə diqqətin artması.

Qloballaşma ölkələr arasındakı əlaqələri genişləndirir və bunun nəticəsi olaraq təhsil sistemlərinin fəaliyyət və effektivliyinin müqayisəsinə maraq artır. Bundan əlavə, regional və qlobal dəyər zəncirində ölkələr arasında rəqabətin artması yüksəkixtisaslı işçi qüvvəsinə tələbat yaradır. Qlobal innovasiya iqtisadiyyatı şəraitində belə işçi qüvvəsi olan ölkələr üstünlüyə malik olur.

İkincisi, qlobal iqtisadi mühit fundamental iqtisadi bacarıqlara diqqəti artırmışdır. Bir sıra ölkələrdə qlobal iqtisadi qeyri-müəyyənliyin təsiri nəticəsində biznesə etimad zəifləmiş, iş yerlərinin sayı azalmışdır. İşsizlik səviyyəsinin yüksək olmasına baxmayaraq, stedadlı işçi qüvvəsinin çatışmazlığı təhsil sistemi ilə əmək bazarının tələbləri arasındakı uyğunsuzluğun nəticəsi kimi qiymətləndirilir. Xüsusən də, cari qlobal mühitdə gənclər arasında işsizlik səviyyəsinin yuxarı olması iqtisadi inkişafı ləngidən və sosial sabitliyi pozan mühüm problemlərdən biridir.

Dünyada iqtisadi qeyri-müəyyənlik və yeni bazarlara çıxış imkanı uğrunda artan rəqabət məhsuldarlıq tələblərinin artmasına səbəb olmuşdur. Buna müvafiq olaraq, dünya ölkələri bazarların, şirkətlərin və fərdlərin əmək məhsuldarlığının artırılmasına getdikcə daha çox diqqət yetirirlər. Burada texnologiya katalizator rolunu oynayaraq, təhsil müəssisələrini əmək bazarının tələblərinə cavab verməyə imkan verən vasitələrlə təmin edir. İnformasiya texnologiyaları "öyrətməklə öyrənmək" modelində məhsuldarlığın artırılmasını asanlaşdırır.

Dördüncüsü, getdikcə artan ixtisaslı kadr çatışmazlığı problemini həll etmək, tələbələrin və işəgötürənlərin ehtiyaclarını təmin etmək məqsədilə təhsilə maraq daha da artmaqdadır. İxtisaslı kadr çatışmazlığının getdikcə artması,

əsasən, təhsil və əmək bazarı arasında kəmiyyət, keyfiyyət və gözləntilər baxımından uyğunsuzluqlarla əlaqədardır. Kəmiyyət baxımından uyğunsuzluqlar müxtəlif ixtisas dərəcələri (ilk, orta və ya ali ixtisas) və sahələr (tibb, texnologiya və s.) üzrə əmək bazarında bəzən tələb olunandan çox, bəzən isə tələb olunandan az sayda kadrların hazırlanması nəticəsində yaranır. Keyfiyyət uyğunsuzluqları məzunların işəgötürənlərin iş səriştələri və işə hazırlıq səviyyəsi ilə bağlı tələblərinə uyğun olmaması nəticəsində baş verir. Həmçinin ixtisasın təmin etdiyi gələcək imkanlar və karyera uğurunu təmin edəcək digər vasitələrlə bağlı yanlış ilkin təsəvvürlər təhsil və əmək bazarı arasında gözləntilər baxımından uyğunsuzluğa səbəb olur.

Səriştəli işçi qüvvəsinə olan tələbatı ödəmək üçün bir çox dünya ölkələri peşə təhsilinin inkişafı və işsizliyin azaldılması istiqamətində müvafiq hüquqi və iqtisadi islahatlar həyata keçirirlər. Peşə təhsili sahəsində həyata keçirilən islahatlar sabahın işçi qüvvəsinin kiçik və orta sahibkarlığın üstünlük təşkil etdiyi dəyişən və rəqabətli əmək bazarının tələblərinə uyğun səviyyədə hazırlanması məqsədi daşıyır.

Qlobal trendə görə, təhsilini ali məktəbdə davam etdirmək istəyən şagirdlər orta məktəbi peşə-ixtisas təhsili sənədi ilə bitirməyə üstünlük verirlər. Bu halda onlar orta məktəb attestatı ilə yanaşı, əlavə bir peşəyə də yiyələnmiş olurlar və arzu etdikləri sahəni daha dərindən mənimsəyirlər.

Beynəlxalq sertifikata malik peşə təhsili məzunlarına tələbat həm beynəlxalq, həm də yerli səviyyədə yüksək olaraq qalır. Bu zaman mütəxəssislərin xaricdə işləmək imkanları əhəmiyyətli dərəcədə artır. Peşə təhsili elektron dərsliklər və simulyatorlardan istifadə olunmaqla daha praktiki istiqamət alır.

Dövlət-özəl tərəfdaşlığı çərçivəsində infrastruktur və digər xərclərin optimallaşdırılması və vəsaitlərdən istifadənin səmərəliliyinin artırılması peşə təhsilində yeni əməkdaşlıq imkanları yaradır. Dəyişən əmək bazarının tələblərinə çevik uyğunlaşan müvafiq peşə təhsili proqramları ilə işəgötürənlərin təlim tələblərinin vaxtında qarşılanması və kadrların yenidən hazırlanması müasir peşə təhsili müəssisələrini səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Qeyd edilənlərlə yanaşı, müasir peşə təhsilində əsas trendlərdən biri də peşə təhsili məzunlarına sahibkarlıq bacarıqlarının aşılanması, bununla da onların öz yeni iş yerlərini yaratmağa həvəsləndirilməsidir.

Peşə təhsili və təliminin ümumi iqtisadi inkişafdakı əhəmiyyətini nəzərə

alaraq, bir çox dünya ölkələri bu sahənin inkişafı üzrə proqramlar hazırlayır və həyata keçirir. İstehsalat təcrübələri ilk və orta peşə təhsili məzunları üçün təhsildən məşğulluğa keçidi təmin edən ən effektiv alətlərdən biri kimi öz təsdiqini tapmışdır və real sektorla bu cür əməkdaşlıq real iqtisadi təsir yaradan mühüm bir vasitədir.

Peşə təhsilinin cəlbediciliyini artırmaq üçün dünyada, eləcə də ölkəmizdə həm şagirdlər, həm də işəgötürənlər stimullaşdırılmaqla, sistemin məhsuldarlığının artırılması təmin edilir. Bundan əlavə, marketinq kampaniyaları vasitəsilə peşə təhsilinin ictimai imicinin yaxşılaşdırılmasına getdikcə daha çox diqqət yetirilir. Bütün bu və digər amillər peşə təhsilini cəlbedici, vacib və aktual edir.

## 2. Peşə təhsilinin səviyyələri



Hazırda ölkəmizdə peşə təhsilinin səviyyələri aşağıdakılardır:

**İlk peşə təhsili** – müxtəlif peşə istiqamətlərinə aid fəaliyyətin spesifik sahəsi üzrə sadə vəzifələrin icrasına imkan verən nəzəri, metodiki və praktiki hazırlıq;

**Texniki peşə təhsili** – müxtəlif peşə istiqamətlərinə aid fəaliyyətin spesifik sahəsi üzrə sadə, xüsusi və mürəkkəb işləri yerinə yetirmək imkanı verən nəzəri, metodiki və praktiki hazırlıq;

**Yüksək texniki peşə təhsili** – müxtəlif peşə istiqamətlərinə aid fəaliyyətin spesifik sahəsi üzrə həyata keçiriləcək işlərin planlaşdırılması, təşkili və idarə edilməsi daxil olmaqla sadə, xüsusi və mürəkkəb işləri müstəqil yerinə yetirməyə imkan verən yüksək nəzəri, metodiki və praktiki hazırlıq.

# 3. Peşə təhsil müəssisələri



Peşə təhsili müəssisələrinin aşağıdakı növləri fəaliyyət göstərir:

**1. Peşə liseyi** – peşə təhsili ilə birlikdə tam orta təhsil verən təhsil müəssisəsidir.

**2. Peşə məktəbi** – peşə təhsili verən təhsil müəssisəsidir.

**3. Peşə təhsil mərkəzi** - müəyyən peşə istiqamətləri üzrə ixtisaslaşmış ümumi orta təhsil və tam orta təhsil bazasında peşə təhsilinin bütün səviyyələrində fəaliyyət göstərən təhsil müəssisəsidir.

# 4. Peşə təhsili müəssisələrində təhsil müddəti



Peşə təhsili müəssisələrində təhsil müddəti aşağıdakı qruplara görə müəyyənləşdirilir:

- Ümumi orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 1 il, texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 2 il;
- Tam orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 6 ay, texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 1 il;
- Ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil alanlar üçün təşkil edilən qruplarda – 3 il;
- Ümumi orta təhsil bazasından qəbul olunmuş və yüksək texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 4 il;
- Tam orta təhsil bazasından qəbul olunmuş və yüksək texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 3 il.

*Ümumi orta və tam orta təhsil səviyyəsini bitirib, istehsalatda və ya digər iş sahələrində müəyyən nəzəri və praktiki peşə bacarıqları qazanmış şəxslər üçün işəgötürənlərin və fərdlərin öz vəsaiti hesabına sifarişlər əsasında həmin və ya digər peşənin öyrənilməsi, ixtisasın artırılması və yenidən hazırlanma üzrə kurslarda təhsil müddəti 6 aya qədərdir.*

# 5. Peşə təhsil müəssisələrinə müraciət müddətləri və prosedurları



Peşə təhsili almaq istəyən şəxslər "portal.edu.az" platformasında qeydiyyatdan keçməklə "Peşə təhsili müəssisələrinə elektron tələbə qəbulu" xidməti vasitəsilə müraciət göndərməlidirlər. Müraciət üçün müddət bir qayda olaraq iyul-avqust aylarına təsadüf edir. Məsələn, 2023/2024-cü tədris ili üzrə peşə təhsili almaq istəyən şəxslər üçün 28 iyul - 11avqust tarixləri müəyyən edilmişdir.

Qeydiyyatdan keçmiş müraciətçilərin elektron ərizələrindəki məlumatların doğruluğu yoxlanıldıqdan sonra iştirakçının ixtisaslar üzrə seçimi sistem tərəfindən təsdiqlənir. Qəbul ərizəçinin attestatında göstərilən müvafiq fənlər üzrə qiymətlərinin orta balı əsasında həyata keçirilir. Tələbə qəbulu prosesində iştirak edən hər bir şəxsə maksimum 5 ixtisas üzrə seçim etmək imkanı yaradılır.

Müraciət edən şəxslərin nəticələri barədə məlumatın "şəxsi kabinetim" bölümündə yerləşdirilməsi və həmçinin, SMS vasitəsilə də təqdim edilməsi nəzərdə tutulur. Müsabiqədən uğurla keçən namizədlər növbəti mərhələdə qəbul olduqları müəssisəyə sənədlərinin əslinin təqdim edilməsi üçün dəvət olunacaqlar.

Elektron qeydiyyatdan keçən zaman aşağıdakı sənədlər tələb olunur:

- Şəxsiyyəti təsdiq edən sənəd (Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqələrini, əcnəbilər müvəqqəti və ya daimi yaşayış icazə vəsiqələrini, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini, qaçqın statusu almış şəxslər və onların ailə üzvləri isə qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini);
- Təhsil haqqında sənəd (attestat);
- Əlilliyi olan şəxslər, eləcə də valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar müvafiq olaraq əlilliyini təsdiq edən sənəd, valideynlərini itirməsini və valideyn himayəsindən məhrum olmasını təsdiq edən sənəd.

# 6. Şirvan şəhəri və ona yaxın ərazilərdə peşə təhsil müəssisələri



## a) Peşə liseyləri

| # | Liseyin adı, ünvanı və əlaqə | Tədris olunan ixtisaslar |
|---|---|---|
| 1 | Şirvan Peşə Liseyi<br><br>(02121) 5-58-83<br>Şirvan Şəhəri,<br>M. Ə. Rəsulzadə<br>küç. 21 | • Əməliyyatçı-mühasib<br>• Neft və qazçıxarma operatoru<br>• Radio-televiziya aparatlarının təmiri və xidməti radiomexaniki<br>• Elektrik qaz qaynaqçısı<br>• Dərzi<br>• Kompüter ustası<br>• Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru<br>• Neft-kimya sənayesi aparatçısı-operatoru |
| 2 | Salyan Peşə Liseyi<br><br>(02125) 5-22-83<br>Salyan rayonu,<br>Heydər Əliyev<br>küç. 96 | • Əməliyyatçı-mühasib<br>• Ərzaq və qeyri-ərzaq malları satıcısı, nəzarətçi-xəzinədar<br>• Geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü (BC kateqoriyası)<br>• Aqroservis mütəxəssisi<br>• Heyvandarlıq mütəxəssisi<br>• Kostyum ustası və dərzi<br>• Kompüter operatoru<br>• Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru |

| | | |
|---|---|---|
| 3 | 1 nömrəli Sumqayıt Peşə Liseyi<br>(01865) 5-67-00<br>Sumqayıt qəsəbəsi, İnşaatçılar qəs., Sverdlov küç. 15/14 | • Turizm agenti<br>• Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montryoru<br>• Rabitə avadanlıqlarının quraşdırıcısı<br>• Elektrik qaz qaynaqçısı<br>• Mexaniki yığma işləri üzrə çilingər<br>• Kompüter operatoru |
| 4 | 10 nömrəli Sumqayıt Peşə Liseyi<br><br>(01864) 4-47-78<br>Sumqayıt şəhəri, Koroğlu küç. | • Bərbər-manikürçü<br>• Kompüter ustası<br>• Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru-avtomobil sürücüsü<br>• Elektrik qaz qaynaqçısı<br>• Geniş profilli dəzgahçı<br>• Avtomobillərin təmiri çilingəri-avtomobil sürücüsü<br>• Dərzi<br>• Kompüter operatoru |
| 5 | 3 nömrəli Sumqayıt Peşə Liseyi<br><br>(01864) 5-54-63<br>Sumqayıt şəhəri, 76-cı məhəllə, Sülh küç. 5 | • Əməliyyatçı-mühasib<br>• Nəzarətçi-xəzinədar<br>• Aşpaz<br>• Bərbər-manikürçü<br>• Dərzi<br>• Kompüter operatoru |

| | | |
|---|---|---|
| 6 | Abşeron Binə Peşə Liseyi<br><br>(012) 456-01-21<br>Xəzər rayonu,<br>Binə Qəsəbəsi,<br>Ə. İsazadə küç. 1 | • Əməliyyatçı-mühasib<br>• Kompüter ustası<br>• Avtomobil və traktorların elektrik avadanlıqlarının təmiri üzrə çilingər-elektrik, avtomobil sürücüsü<br>• Geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü (BC kateqoriyası)<br>• Kəndin elektrikləşdirilməsi və rabitəsi üzrə elektrik montyoru, avtomobil sürücüsü<br>• Meliorasiya işlərinin traktorçusu, təmirçi-çilingər, avtomobil sürücüsü<br>• Bağban<br>• Elektrik qaz qaynaqçısı<br>• Avtomobillərin təmiri çilingəri-avtomobil sürücüsü<br>• Kompüter operatoru<br>• Yanacaqdoldurma stansiyalarının operatoru |
| 7 | Abşeron Ceyranbatan Peşə Liseyi<br>(012) 448-10-15<br>Abşeron rayonu<br>Ceyranbatan qəs. | • Avtomobil və traktorların elektrik avadanlıqlarının təmiri üzrə çilingər-elektrik, avtomobil sürücüsü<br>• Geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü (BC kateqoriyası)<br>• Alətçi-çilingər<br>• Avtomobillərin təmiri çilingəri<br>• Çilingər-santexnik<br>• Kompüter operatoru<br>• Avtomobil üzrə dəmirçi<br>• Avtomobil rəngsazı |

| | | |
|---|---|---|
| 8 | Sabirabad Peşə Liseyi<br><br>(02123) 5-94-80<br>Sabirabad ray.,<br>Heydər Əliyev pr. 1 | • Aqroservis mütəxəssisi<br>• Heyvandarlıq mütəxəssisi<br>• Elektrik qaz qaynaqçısı<br>• Dərzi<br>• Kompüter üzrə operator, dizayner<br>• Bitkiçilik mütəxəssisi (pambıqçılıq)<br>• Tərəvəz ustası |

**b) Peşə təhsil mərkəzləri**

| # | Müəssisənin adı, ünvanı və əlaqə | Tədris olunan ixtisaslar |
|---|---|---|
| 1 | Aviasiya və Avtomobil Nəqliyyatı üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi<br><br>+994124560121<br>Xəzər ray.,<br>Binə qəs.<br>Ə. İsazadə küç. 1 | • Avtomobil üzrə elektrik<br>• Avtomobil mühərriklərinin yığıcısı<br>• Avtomobil rəngsazı<br>• Avtomobil üzrə dəmirçi<br>• Uçan aparatların cihaz avadanlıqları üzrə elektromexanik<br>• Kompüter operatoru<br>• Aşpaz<br>• Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru<br>• Avtomobillərin təmiri çilingəri-avtomobil sürücüsü<br>• Avtomobillərin təmiri çilingəri |

| | | |
|---|---|---|
| | | ● Geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü (BC kateqoriyası)<br>● Kənd təsərrüfatı məhsullarının saxlanılması və anbarlanması üzrə logistika mütəxəssisi<br>● Avtomobil diaqnostikası və təmiri ustası<br>● Avtomobil və traktorların elektrik avadanlıqlarının təmiri üzrə çilingər-elektrik, avtomobil sürücüsü<br>● Kompüterlərin təmiri və texniki xidməti üzrə usta |
| 2 | Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi<br><br>+994125410510 Bakı şəhəri, Nərimanov ray., Təbriz küç. 19 | ● Yük və baqaj üzrə xəzinədar<br>● Yüksəkgərginlikli hava xətlərinin və kontakt şəbəkələrinin quraşdırıcısı üzrə elektrik montyoru-xətçi<br>● Elektrovoz maşinisti<br>● Elektrovoz maşinisti köməkçisi<br>● Teplovoz maşinisti<br>● Teplovoz maşinisti köməkçisi<br>● Vaqon baxıcısı-təmirçisi<br>● Dəmiryol stansiyasının növbətçisi<br>● Texniki xidmət məntəqələrində lokomotivlərin baxıcısı və təmiri çilingəri<br>● İşarəvermə, mərkəzləşdirmə, bloklama qurğularının təmiri və xidməti elektrik montyoru<br>● Elektrik qatarının maşinisti<br>● Elektrik qatarının maşinist köməkçisi |

| | | |
|---|---|---|
| | | • Metropolitenin stansiya növbətçisi<br>• Yolun və süni qurğuların cari təmiri və saxlanması üzrə briqadir<br>• Dəmiryolu stansiyası və keçid növbətçisi |
| 3 | Dəniz Nəqliyyatı, Gəmiqayırma və Liman İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi<br><br>+994125440762 Qaradağ ray., Mehdiyev küç. 1 | • Gəmi maşın mexanizmlərinin təmiri üzrə çilingər<br>• Kompüter operatoru<br>• Aşpaz<br>• Elektrik qaz qaynaqçısı<br>• Bərbər-vizajist-manikürçü<br>• Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru<br>• Vaqon baxıcısı-təmirçisi<br>• Avtomobillərin təmiri çilingəri<br>• Dərzi<br>• Əməliyyatçı-mühasib<br>• Kənd təsərrüfatı məhsullarının saxlanılması və anbarlanması üzrə logistika mütəxəssisi |
| 4 | Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi<br><br>+994124255239 Bakı şəhəri, Sabunçu rayonu, Mehmandarov 4. | • Neft və qazçıxarma operatoru<br>• Kimyəvi analiz laborantı<br>• Neft-kimya sənayesi aparatçısı-operatoru<br>• Tornaçı<br>• Avtomatlaşdırılmış texnologiyalar və istehsal üzrə operator<br>• Texnoloji qurğuların operatoru |

| | | |
|---|---|---|
| | | ● İnşaat xarratı<br>● Ağac nəqqaşı<br>● Kompüter operatoru<br>● Telekommunikasiyada kompüter texnikasının istismarı üzrə operator<br>● Kompüter ustası<br>● Aşpaz<br>● Elektrik qaz qaynaqçısı<br>● Qənnadçı, şirniyyatçı<br>● Bərbər<br>● Bərbər-vizajist-manikürçü<br>● Mebel ustası<br>● Rabitə avadanlıqlarının quraşdırıcısı<br>● Laborant-mikrobioloq<br>● Tikiş avadanlıqlarının operatoru, tikişçi<br>● Dərzi<br>● Geyim üzrə dizayner<br>● Kargüzar<br>● Əməliyyatçı-mühasib<br>● Torna və frezer dəzgahların operatoru<br>● Kompüterlərin təmiri və texniki xidməti üzrə usta |
| 5 | Xidmət Sahələri üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi | ● Aşpaz<br>● Bərbər-vizajist-manikürçü<br>● Dərzi |

| | | |
|---|---|---|
| | +994186555463<br>Sumqayıt şəhəri,<br>Sülh küçəsi 5,<br>məhəllə 76 | • Geyim üzrə dizayner<br>• Turizm sahəsində iaşə üzrə mütəxəssis<br>• İT texniki dəstək üzrə texnik (Helpdesk) |
| 6 | İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi<br><br>+994124405312<br>Bakı şəh,<br>Cəfər Xəndan küç. 50 | • Kompüter operatoru<br>• Aşpaz<br>• Reklam işçisi<br>• Qənnadçı, şirniyyatçı<br>• Bərbər<br>• Bərbər-vizajist-manikürçü<br>• Dərzi<br>• İnteryer və eksteryerin bədii tərtibatçısı<br>• Əməliyyatçı-mühasib<br>• Ərzaq və qeyri-ərzaq malları satıcısı, nəzarətçi xəzinədar<br>• Sığorta işçisi<br>• Tədbirlərin təşkilatçısı |
| 7 | Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi<br><br>+994 56 749 02 | • Poliqrafiya üzrə dizayner<br>• Sistem və şəbəkə xidməti üzrə texnik<br>• Qrafik dizayner<br>• Lokal şəbəkələrə xidmət üzrə texnik<br>• Kompüter üzrə operator, dizayner<br>• Telekommunikasiyada kompüter texnikasının<br>• istismarı üzrə operator |

| | | |
|---|---|---|
| | Bakı şəhəri,<br>Nərimanov ray.,<br>Ə. Qayıbov 13 | ● Kompüter ustası<br>● Radio-televiziya aparatlarının təmiri və xidməti<br>● radiomexaniki<br>● Mobil telefonların təmiri ustası<br>● Kargüzar<br>● Əməliyyatçı-mühasib<br>● İsitmə-soyutma, havalandırma sistemləri və<br>● avadanlıqları üzrə montajçı<br>● Veb dizayner və proqram təminatçısı<br>● Kompüterlərin təmiri və texniki xidməti üzrə usta<br>● İT texniki dəstək üzrə texnik (Helpdesk) |
| 8 | Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi<br><br>+994125628331<br>Bakı şəh.,<br>Koroğlu Rəhimov küç. 76 | ● Mebel ustası<br>● Torna və frezer dəzgahların operatoru<br>● Veb dizayner və proqram təminatçısı<br>● İnşaat ustası<br>● Elektronika ustası<br>● İT texniki dəstək üzrə texnik (Helpdesk)<br>● Veb-dizayner<br>● Kompüter sistemlərində proqram təminatı<br>● Nəqliyyat vasitələrinin texniki istismarı<br>● Avtomatika sistemlərinin istismarı<br>● Elektronika və kommunikasiya sistemlərinin istismarı |

| | | |
|---|---|---|
| | | • Kiber təhlükəsizlik<br>• Kompüter sistemlərində proqramlaşdırma<br>• İnteryer dizayn<br>• Veb dizayn və proqram təminatı<br>• İnformasiya Kommunikasiya texnologiyaları üzrə texnik<br>• Avtomobil mexatronikası üzrə texnik<br>• Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru<br>• Avtomobillərin təmiri çilingəri<br>• Avtomobil üzrə elektrik<br>• Avtomatika üzrə usta<br>• Avtomobil diaqnostikası və təmiri ustası<br>• Sənayedə quraşdırma işləri üzrə usta<br>• Nəqliyyat vasitələrinin texniki istismarı (avtomobil üzrə)<br>• Sənaye və mülki binalarda elektrik avadanlıqlarının quraşdırılması və istismarı<br>• Proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı<br>• Sənayedə avadanlıqların quraşdırılması və texniki istismarı<br>• Binaların tikintisi və istismarı |
| 9 | Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt | • Telekommunikasiyada kompüter texnikasının istismarı üzrə operator<br>• Rabitə avadanlıqlarının quraşdırıcısı |

| | | |
|---|---|---|
| | Dövlət Peşə Təhsil Mərkəzi<br><br>0186444778<br>Sumqayıt şəh, məhəllə 42, Koroğlu pr. 266 | ● Kargüzar<br>● Kompüter operatoru<br>● Kompüter ustası<br>● Elektrik qaz qaynaqçısı<br>● Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru<br>● Əl elektrik qaynaqçısı<br>● Proqramla idarə olunan dəzgahların operatoru<br>● Avtomobillərin təmiri çilingəri<br>● Kimyəvi analiz laborantı<br>● Əməliyyatçı-mühasib<br>● İsitmə-soyutma, havalandırma sistemləri və avadanlıqları üzrə montajçı<br>● İsitmə və soyutma sistemlərinə xidmət üzrə mütəxəssis<br>● Kompüterin təmiri və texniki xidməti ustası |
| 10 | Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi<br><br>+994123746414<br>Bakı ş, İsmayıl Məmmədov küç. 148 | ● Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru<br>● Mobil telefonların təmiri ustası<br>● Kompüterlərin təmiri və texniki xidməti ustası<br>● Mühafizə-yanğın siqnalizasiyasının elektromontyoru<br>● Lift üzrə elektromexanik<br>● Quru inşaat işləri ustası<br>● Kompüter üzrə operator, dizayner |

| | | |
|---|---|---|
| | | • Kompüter operatoru<br>• Kompüter ustası<br>• Aşpaz<br>• Elektrik qaz qaynaqçısı<br>• Bərbər<br>• Bərbər-vizajist-manikürçü<br>• Əl elektrik qaynaqçısı<br>• Təmirçi-çilingər<br>• Dərzi<br>• Geyim üzrə dizayner<br>• Çilingər-santexnik<br>• Quru inşaat ustası<br>• Elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis<br>• Əməliyyatçı-mühasib<br>• İsitmə-soyutma, havalandırma sistemləri və avadanlıqları üzrə montajçı<br>• Qrafik dizayner |
| 11 | Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi<br><br>Qaradağ rayonu, Lökbatan qəs., Musəvi 3 | • Təmirçi-çilingər<br>• Mənzil təsərrüfat xidməti üzrə mütəxəssis<br>• Kompüter üzrə operator, dizayner<br>• Kompüter operatoru<br>• Aşpaz<br>• Elektrik qaz qaynaqçısı<br>• Bərbər-vizajist-manikürçü<br>• Əl elektrik qaynaqçısı<br>• Dərzi |

| | | |
|---|---|---|
| | | • Çilingər-santexnik<br>• Dülgər<br>• Quru inşaat ustası<br>• Elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis<br>• Rəngsaz və Suvaq ustası<br>• Torna və frezer dəzgahların operatoru<br>• Quru inşaat işləri ustası |
| 12 | Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi<br><br>+9943791045<br>Bakı ş,<br>Xətai ray.,<br>Cavanşir küç.<br>10A | • Bərbər<br>• Bərbər-vizajist-manikürçü<br>• Elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis<br>• Əməliyyatçı-mühasib<br>• Sığorta işçisi<br>• Mühasibat uçotu<br>• Saç və gözəllik xidmətləri<br>• Kompüter operatoru<br>• Aşpaz<br>• Qənnadçı, şirniyyatçı<br>• Mehmanxana inzibatçısı<br>• Dərzi<br>• Geyim üzrə dizayner<br>• Kargüzar<br>• Ərzaq və qeyri-ərzaq malları satıcısı, nəzarətçi-xəzinədar<br>• Turizm sahəsində iaşə üzrə mütəxəssis<br>• Turizm təşkilatçısı<br>• Mehmanxana və restoran işinin təşkili və idarə edilməsi<br>• Moda dizaynı |

# 7. Şirvan şəhərində peşə ixtisasları

Şirvan şəhərində peşə təhsili haqqında daha ətraflı məlumat aşağıdakı cədvəldə təqdim edilir. Bu məlumat peşə ixtisasını, təhsilin müddətini, əvvəlki təhsil bazasını, təhsilin səviyyəsini, təhsilin dövlət hesabına və yaxud ödənişli olmasını və ödənişli əsaslarla olduqda təhsil haqqının məbləğini əhatə edir:

| İxtisasın adı | Təhsil müddəti | Əvvəlki təhsil bazası | Təhsil səviyyəsi | Dövlət hesabına və (və ya) ödənişli | Təhsil haqqının məbləği (manat) |
|---|---|---|---|---|---|
| Aqroservis mütəxəssisi | 1 illik | Tam orta | Texniki peşə | Ödənişli əsaslarla | 500 |
| Neft-kimya sənayesi aparatçısı-operatoru | 3 illik | Ümumi orta | Texniki peşə | Dövlət vəsaiti hesabına | |
| Neft-kimya sənayesi aparatçısı-operatoru | 1 illik | Tam orta | Texniki peşə | Dövlət vəsaiti hesabına | |
| Neft-kimya sənayesi aparatçısı-operatoru | 1 illik | Tam orta | Texniki peşə | Ödənişli əsaslarla | 500 |
| Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru | 3 illik | Ümumi orta | Texniki peşə | Dövlət vəsaiti hesabına | |
| Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru | 1 illik | Tam orta | Texniki peşə | Ödənişli əsaslarla | 500 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Elektrik qaz qaynaqçısı | 3 illik | Ümumi orta | Texniki peşə | Dövlət vəsaiti hesabına | |
| Elektrik qaz qaynaqçısı | 1 illik | Tam orta | Texniki peşə | Ödənişli əsaslarla | 550 |
| Radio-televiziya aparatlarının təmiri və xidməti radiomexaniki | 3 illik | Ümumi orta | Texniki peşə | Dövlət vəsaiti hesabına | |
| Avtomobillərin təmiri çilingəri | 3 illik | Ümumi orta | Texniki peşə | Dövlət vəsaiti hesabına | |
| Avtomobillərin təmiri çilingəri | 1 illik | Tam orta | Texniki peşə | Ödənişli əsaslarla | 500 |
| Dərzi | 3 illik | Ümumi orta | Texniki peşə | Dövlət vəsaiti hesabına | |
| Xalçaçı | 1 illik | Tam orta | Texniki peşə | Dövlət vəsaiti hesabına | |
| Təmirçi-çilingər | 3 illik | Ümumi orta | Texniki peşə | Dövlət vəsaiti hesabına | |
| Qrafik dizayner | 3 illik | Ümumi orta | Texniki peşə | Dövlət vəsaiti hesabına | |
| Qrafik dizayner | 1 illik | Tam orta | Texniki peşə | Ödənişli əsaslarla | 500 |
| Neft və qazçıxarma operatoru | 3 illik | Ümumi orta | Texniki peşə | Dövlət vəsaiti hesabına | |
| Neft və qazçıxarma operatoru | 1 illik | Tam orta | Texniki peşə | Ödənişli əsaslarla | 550 |

# QEYDLƏR

Tiraj: 310
"Tərəqqi" MMC-nin mətbəəsində
hazır materiallar əsasında çap edilmişdir.
Ünvan: Akademik Mustafa Topçubaşov, 11